Ədəbiyyat QƏZETİ
30 yanvar / 2021

# Xalq şairi Nəriman Həsənzadəyə açıq məktub




Çox hörmətli Nəriman Həsənzadə. Türk dünyasının dəyərli şairi və mütəfəkkiri. Güney Azərbaycandan olan dəyərli dostum Hüseyn Şarkıderecek Soytürk məlum pandemiya səbəbindən xeyli müddətdir ki, Türkiyənin Trabzon şəhərində məskunlaşmışdır. Bu müddətdə o, Manisa və Salıhliyə də səfər etmişdir. Səfər zamanı qonağımız olan Hüseyn bəy sizin şeirlərinizdən söhbət açdı. Şeirləriniz mənim və ailəmin diqqətini çox çəkdi, onları Hüseyn bəylə bir yerdə incələdik. Şeirləriniz bir-birindən dəyərli, gözəl və mənalı idi. Bu gözəl əsərlərin Türkiyədə də tanınmasına vəsilə olmaq istədik. Türkiyə türkcəsinə uyğunlaşdırdığımız bir neçə şeirinizi "Sən bağışladın" adı ilə Ankaradakı "Gülnar" nəşriyyatında çap etdirərək oxuculara təqdim etdik. Şeirlərinizi oxuduqca sizin o gözəl daxili aləminizə (iş dünyanıza) valeh oldum. Şeirlərinizin günümüzün ən vacib məsələlərinə, insanın ruh halına işıq sala bilən dərin məna daşıdığının şahidi oldum. Eləcə də sizin duyğularınızla tanış oldum. Sizi oxuya-oxuya Azərbaycanı gəzib-dolaşdım. Türkiyədəki minlərlə oxucunuzun da bu hissləri yaşayacağından əminəm. Azərbaycanın iki yerə bölünmüş acı taleyini, qardaş Türkiyədən uzaq düşməsini əks etdirən və sözün əsl mənasında insanın daxili aləminə nüfuz edən, mənəvi qida rolunu oynayan şeirlərinizdən bir şairə kimi ilham aldım. Yaradıcılığınızın bundan sonra yazacağım şeirlərdə iz buraxacağından əminəm. Şeirlərinizlə müasir Azərbaycanın mənəvi ruhunu Türk insanına aşılayırsınız.

İnanıram ki, Dədə Qorqud sayağı kəlamlarınız yüz minlərlə Türk insanına milli dəyərlərin qorunub saxlanılması yolunda qol-qanad verəcəkdir.

Siz ruhən paylaşan, bölüşən və sevən böyük qəlbə sahib görkəmli Türk mütəfəkkiri və şairisiniz. Arada olan min kilometrlərlə məsafənin bizi bir-birimizdən ayıra bilmədiyinə görə çox qürur duyuram. Dilimiz, kökümüz bir olduğuna görə sizi burada da eynilə Azərbaycandakı kimi oxuyurlar və tanıyırlar. Biz burada sizin duyğularınızı, misralarınızı oxuyaraq yenidən doğuluruq və məsafələrə qalib gəlirik. Allahdan sizə cansağlığı və uzun ömür arzu edirəm. Sizi sevənlərə də uğurlar və sağlam həyat diləyərək, çox sağ olun deyirəm. Mənə aid nacizanə bir şeir parçası ilə və sizin bəzi seçmələrlə yazımı sonlandırmaq istəyirəm.

*Şeir... Bir sevda*
*Bəzən sığınalacaq bir liman*
*Yuxusuz gecələrdə*
*Ulduzlarla dost olub*
*Bir işıq yandırmaqdır qaranlıqda*
*Çox zaman...*
*Xəyalların hərflərlə divarını hörmək*
*Duyğuların sözlərlə rəsmini çəkməkdir*
*Bəzən də...*
*Bəzən də, bir çiçəyi dilləndirməkdir*
*Heca-heca, sətir-sətir...*
*Və... Və kağızla qələmin rəqsidir şeir.*

**Gülsüm Gülməz**

Məni son dərəcə duyğulandıran, mənə dərinliyi ilə insanı alıb götürən, səmimi, içdən, ruhu oxşayan bənzərsiz şeirləriniz həqiqətən də ilmə-ilmə işlənmiş sənət əsərləridir.

*"Mənə üfüq boyda geniş səmanı,*
*Göydə buludları, yerdə dumanı,*
*Dənizdə dalğanı sən bağışladın,*
*Bu hüsnü-mənanı sən bağışladın".*

*"Nəriman, ürəyin başqadır sənin,*
*Millət hörmətini yaşadır sənin.*
*Kimlər bostanına daş atır sənin,*
*Səbr elə, daşın da o vaxtı deyil".*

*"Qol-qola yeriyir iki mehriban,*
*Oğlan ərk eləyir, qız naz eləyir,*
*Dəymə sən onlara, Ulu Yaradan,*
*Dünyanı dünyada taraz eləyir".*

*"Deyin, məclisimə gəlməsin mənim*
*İlhamsız ilhamlı iddiasında.*
*Adlar, təxəllüslər oxunmur, deyin,*
*Hüseyn oxunur el arasında".*

*"Çətindir keçilən ömür yolları,*
*Yaşamaq özü də hünər istəyir.*
*Məni bayraq kimi tutun yuxarı*
*Sizə lazım olsam o parça qədər".*

*"Mənə ürək verir, sənə qol-qanad,*
*Məhəbbət əyləncə, oyuncaq olmaz.*
*Sevmək vətəndaşlıq borcudur, ustad,*
*Vətəndə vətənsiz yaşamaq olmaz".*

Bəzən bir sevgiliyə, bir dosta həsrətlə, bəzən milli hisslə, Vətən eşqilə, bəzən də ilahi bir ruhla bəslənirdi rəssam kimi sətirlərə düzdüyünüz hisslər.

Şeirlərinizin hər bir misrasında son dərəcə düşündürən, duyğulandıran, yol göstərən dərin mənalar, dərin izlər süzülüb gəlir ürəklərə, yaddaşlara. Və bütün bu həyata aid gözəl duyğular, misra-misra şeirlərə çevrilənlər bilgəliyinizin, ucalığınızın gözəlliyi və bənzərsizliyidi. Şeirlərinizin önə çıxan gözəlliyi ürəklərə yol açmasıdır.

Təşəkkür edirəm.

Ürəkdən salam və hörmətlə,

***Gülsüm GÜLMƏZ***
*12.01.2021*
*Salihli/Manisa*
*Türkiyə*